**“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Dövlət qulluğu haqqında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 171-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 15 aprel tarixli 122 nömrəli, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 5 avqust tarixli 1569 nömrəli və “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” 2019-cu il 16 dekabr tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Dövlət qulluğu haqqında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 171-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 4, maddə 231; 2000, 3, maddə 159; 2008, 7, maddə 611, 8, maddə 719, 10, maddə 896; 2009, 2, maddə 71, 12, maddələr 977, 987; 2011, 7, maddə 633; 2012, 6, maddə 545; 2014, 7, maddə 791, 11, maddə 1408, 12, maddə 1570; 2015, 1, maddə 20; 2016, 6, maddə 1050; 2018, 10, maddə 2007, 12 (I kitab), maddə 2615; 2019, 2, maddə 206, 5, maddə 844; 2020, 8, maddə 1037) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 5-1-ci hissəsinin ikinci cümləsində, 7-ci maddəsinin 2-1-ci hissəsində, 47-ci maddəsinin “e” bəndində, 49-cu maddəsinin 2-2-ci (hər iki halda) və 4-cü (birinci halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində, 56-cı maddəsinin 4-cü hissəsində (hər iki halda), 74-cü maddəsinin “Qeyd” hissəsinin birinci, ikinci və beşinci cümlələrində, 98-ci maddəsinin 2-ci hissəsində, 155-ci maddəsinin 6-cı hissəsində, 232-ci maddəsinin 3-cü hissəsində, 314-cü maddəsinin 2-ci hissəsində (birinci halda) və 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

1.2. üçüncü abzasa “4-cü hissəsində” sözlərindən sonra “(ikinci halda)” sözləri, “87-ci” sözlərindən əvvəl “74-cü maddəsinin “Qeyd” hissəsinin dördüncü cümləsində,” sözləri əlavə edilsin;

1.3. dördüncü abzasda “5-1-ci hissəsində” sözləri “5-1-ci hissəsinin birinci cümləsində” sözləri ilə əvəz edilsin və həmin abzasdan “74-cü maddəsinin “Qeyd” hissəsində,”, “98-ci maddəsinin 2-ci hissəsində,” və “232-ci maddəsinin 3-cü hissəsində,” sözləri çıxarılsın;

1.4. yeddinci abzasın “c” bəndi ləğv edilsin;

1.5. iyirmi ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin, aşağıdakı məzmunda iyirmi üçüncü və iyirmi dördüncü abzaslar əlavə edilsin:

“həmin Məcəllənin 74-cü maddəsinin “Qeyd” hissəsinin birinci, ikinci və beşinci cümlələrində, 98-ci maddəsinin 2-ci hissəsində və 232-ci maddəsinin 3-cü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

həmin Məcəllənin 47-ci maddəsinin “e” bəndində, 56-cı maddəsinin 4-cü hissəsində (hər iki halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.”.

2. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 2, maddə 180; 2019, 6, maddə 1033) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “birinci hissəsində” sözlərindən sonra “, 7-ci maddəsinin 1-ci hissəsinin beşinci bəndində” sözləri əlavə edilsin;

2.2. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.4. həmin Qanunun 7-ci maddəsinin 1-ci hissəsinin beşinci bəndində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 1, maddə 28; 2002, 8, maddə 495; 2005, 12, maddə 1111; 2007, 12, maddə 1241; 2008, 5, maddə 363; 2010, 2, maddə 80; 2017, 8, maddə 1518; 2018, 2, maddə 170, 11, maddə 2249; 2019, 1, maddə 75, 8, maddə 1403; 2020, 1, maddə 7, 7, maddə 871) 3.4-cü bəndi ləğv edilsin.

4. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 8, maddə 1516, 12 (I kitab), maddə 2579; 2019, 6, maddə 1038, 7,

maddə 1217, № 12, maddə 1922; 2020, № 5, maddə 561, № 7, maddə 861; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 21 sentyabr tarixli 1153 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "21.0.5-ci maddələrində," sözlərindən sonra "22.1-ci maddəsinin birinci cümləsində," sözləri əlavə edilsin;

4.2. 2.8-ci bənddə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "orqan (qurum)" sözləri ilə, "Nazirliyi yanında" sözləri "Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

4.3. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. həmin Qanunun 19.0.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, habelə Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

5. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1920; 2020, № 8, maddə 1034) 12.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"12.3. həmin Qanunun 7.6.4.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 171-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 noyabr 2020-ci il
№ 1179